# Cahana sığmayan dahi



Ölkəmizin digər bölgələrində olduğu kimi, Sabirabad Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi şəhər və rayonlarda da "Nəsimi ili" və böyük şairin anadan olmasının 650 illiyi ilə əlaqədar mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilir.

Sabirabad rayon Mədəniyyət Mərkəzində təşkil olunan sərgidə rəsm dərnəyi şagirdlərinin İmadəddin Nəsimi obrazını təsvir edən əl işləri, şairin müxtəlif illərdə çap olunmuş qəzəlləri, 1973-cü ildə nəşr olunmuş farsca divanı, türkcə divanının əlyazma nüsxəsi, şairin Suriyanın Hələb şəhərindəki qəbrinin fotosu və s. nümayiş olunub. Kənd mədəniyyət müəssisələrində keçirilən tədbirlərdə görkəmli şairin Azərbaycan ədəbiyyatında yeri, eləcə də ulu öndər Heydər Əliyevin böyük söz sənətkarının şəxsiyyətinə və yaradıcılığına göstərdiyi diqqət və qayğıdan danışıblar. Mərkəzin nəzdində fəaliyyət göstərən bədii qiraət dərnəyi üzvlərinin ifasında şairin qəzəlləri səsləndirilib.

Mərkəzi kitabxanada və kitabxana filiallarında "Nəsimi ili" çərçivəsində sərgilər, məlumat saatları təşkil olunub. Eyni zamanda tədris ocaqlarında, idarə və müəssisələrdə Nəsimi irsinin təbliği məqsədilə məlumatlandırıcı söhbətlər aparılıb.

Mərkəzi kitabxananın təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərində Nəsiminin 650 illiyi ilə əlaqədar şeir qiraəti müsabiqəsi keçirilib.

Heydər Əliyev Mərkəzində də böyük şairin yubileyi qeyd olunub. Sabirabad Dövlət İqtisad Kolleci, M.Ə.Sabir adına 1 saylı şəhər kitabxanası ilə birgə təşkil olunan tədbirdə qonaqlar mərkəzin foyesində mütəfəkkir şairə həsr olunmuş foto və kitablardan ibarət sərgi ilə tanış olublar. Mərkəzin direktoru Rəna Hacızadə çıxış edərək ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin UNESCO səviyyəsində qeyd olunduğunu diqqətə çatdırıb. Kollecin müəllimi Səidə Hüseynova İ.Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verdikdən sonra tələbələr bədii kompozisiya ilə çıxış ediblər. Sonda mərkəzin 3D kinozalında "Nəsimi" filmi nümayiş olunub.

Sabirabad Rayon Tarix-Diyarşünaslıq Muzeyi S.Vurğun adına 3 saylı tam orta məktəbdə "Nəsimi 650" mövzusunda poeziya saatı keçirib. Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbi isə M.Müşfiq adına tam orta məktəbdə Nəsiminin 650 illik yubileyi münasibətilə konsert təşkil edib.





***

Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyi M.İsrailov adına 18 nömrəli məktəb-liseydə "Nəsimi dünyası" mövzusunda ədəbiyyat dərsi təşkil edib. Şairin həyat və yaradıcılığı haqqında söhbət açılıb, şagirdlər Nəsiminin qəzəllərini səsləndirib, "Nəsimi" filmindən fraqmentlər izləyiblər.

Şirvan şəhər Mədəniyyət Mərkəzi "Dədə Qorqud" və "Aran" klubları ilə birlikdə Gənclər evində "Hüsnü camal, əqli kamal" adlı dəyirmi masa təşkil edib. Tədbirdə Nəsimi yaradıcılığının poetik zənginliklərindən danışılıb, şairin əsərlərinin Yaxın Şərq və Orta Asiyada geniş yayıldığı diqqətə çatdırılıb.



Heydər Əliyev Mərkəzində təşkil olunan "Zərrə mənəm, günəş mənəm" adlı tədbirdə Nəsiminin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib. Mərkəzin əməkdaşları və 21 saylı orta məktəbin şagirdləri şairin qəzəllərini oxuyublar. Uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin şairin qəzəlləri üstə ifa etdikləri musiqilər maraqla qarşılanıb.

Şirvan şəhər MKS tərəfindən "Mütaliə həftəsi" çərçivəsində Nəsiminin yubileyi münasibətilə şəhər ümumtəhsil məktəblərində tədbirlər keçirilib. Şairin kitabları, eləcə də onun haqqında yazılmış ədəbiyyatlar, qəzet və jurnallardan ibarət sərgilər təşkil olunub.

Şirvan Dövlət Rəsm Qalereyası tərəfindən "Nəsimi ili"nə töhfə olaraq şəhərdə fəaliyyət göstərən həvəskar dekorativ-tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi təşkil edilib. Sərgidə 6 tətbiqi sənət ustasının 40-dan çox əl işi yer alıb. Müxtəlif nəbati və həndəsi ornamentlərlə işlənmiş dekorativ bəzək əşyaları maraqla qarşılanıb.

Şirvan şəhər Uşaq musiqi məktəbində "Nəsimi dünyası" adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Şagirdlər şairin əsərlərini qiraət ediblər. "Nəsimi" filmi əsasında hazırlanan səhnəciklər alqışlarla qarşılanıb. Xanəndəlik sinfinin müəllimi İrşad İbişov Nəsimi qəzəlləri üstündə muğam parçaları ifa edib.

***

Saatlı rayon Heydər Əliyev Mərkəzində "Nəsimi ili" çərçivəsində dəyirmi masa təşkil olunub. Rayondakı Peşə liseyinin müəllimi və







şagirdlərinin də iştirak etdiyi tədbirdə filologiya üzrə elmlər doktoru Şöhrət Bədəlov çıxış edərək böyük söz ustadı haqqında geniş məlumat verib, şairin yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən söz açıb.

Saatlı Dövlət Rəsm Qalereyasında rayon Peşə liseyinin müəllim və tələbə kollektivinin iştirakı ilə keçirilən dəyirmi masada Nəsiminin Azərbaycan ədəbiyyatına töhfələrindən söz açılıb.

Rayon MKS-nin təşkilatçılığı ilə Nəsiminin 650 illik yubileyilə əlaqədar məktəblilər arasında bədii qiraət müsabiqəsi keçirilib. Heydər Əliyev Mərkəzi və Mərkəzi kitabxananın birgə təşkil etdiyi ədəbi-bədii gecədə təhsil, mədəniyyət işçiləri, ziyalılar və məktəblilər iştirak edib. İştirakçılar Mərkəzi kitabxana əməkdaşlarının hazırladığı sərgi ilə də tanış olublar.

***

"Nəsimi ili" ilə əlaqədar Hacıqabul rayon Heydər Əliyev Mərkəzində, Mərkəzi kitabxana və filiallarında, Mədəniyyət mərkəzi, kənd mədəniyyət evləri və klublarda, Tarix-diyarşünaslıq muzeyində, Uşaq musiqi məktəbində mütəfəkkir şairin 650 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilib.



Hacıqabul rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı V.Quliyev adına 6 saylı tam orta məktəblə birgə, Mərkəzi kitabxananın Uşaq şöbəsi və şəhər 9 saylı kitabxana filialı ilə birgə dəyirmi masa və sərgilər təşkil ediblər. 24 saylı şəhər kitabxana filialı tərəfindən "Nəsimi poeziyası – kamillik zirvəsi", Heydər Əliyev Mərkəzində "Əbədiyyət üfüqlərində doğmuş eşq günəşi" adlı aylıq bülleten, "Nəsimi 650" adlı foto guşəsi hazırlanıb, "Nəsimi" bədii filminin nümayişi təşkil edilib.

***

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Saatlıda gerçəkləşən tədbirində Sabirabad rayon Mərkəzi Kitabxanası tərəfindən İ.Nəsiminin həyat və yaradıcılığını əks etdirən foto və kitablardan ibarət sərgi təqdim olunub. Festivala rəng qatan anlardan biri də Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Saatlı rayonunun "Muğan" instrumental ansamblının çıxışı, rayonun Nəsimikənd kənd Folklor evinin "Adıgün" türk xalq folklor kollektivinin təqdim etdiyi rəqs nümunələri olub. Sabirabad rayon Mədəniyyət Mərkəzinin Həşimxanlı kənd Mədəniyyət evinin "Cəngavər" pəhləvanlar qrupunun çıxışı böyük maraq doğurub. Regional mədəniyyət idarələrinin özfəaliyyət kollektivləri, folklor və rəqs qruplarının çıxışları, müğənnilər tərəfindən ifa olunan bəstəkar və xalq mahnıları izləyicilərə xoş əhval bəxş edib.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 36-37.